2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Rafiq Abbasovun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 11 sentyabr 2024-cü il tarixli 84 saylı müraciətə baxılması barədə

**R Ə Y İ**

Bakı şəhəri                                                                 13 sentyabr 2024-cü il

Mən, ekspert qrupunun üzvü Rafiq Abbasov 2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar oğlunun Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra – Mərkəzi Seçki Komissiyası) daxil olmuş 17 saylı Yasamal üçüncü seçki dairəsi üzrə qeydə alınmış namizəd Aydın Əhməd oğlu Əbilovun 11 sentyabr 2024-cü il tarixli 84 saylı müraciətini araşdıraraq **müəyyən etdim:**

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra – Seçki Məcəlləsi) 112-ci və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın gəlinmişdir.tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində fəaliyyət göstərən ekspert qrupunun üzvü kimi tərəfimdən araşdırılmış və müvafiq nəticəyə gəlinmişdir.

2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 17 saylı Yasamal üçüncü seçki dairəsi üzrə qeydə alınmış namizəd Aydın Əhməd oğlu Əbilov 2024-cü il sentyabrın 11-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra – Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək həmin seçki dairəsi dairə seçki komissiyasının 7 sentyabr 2024-cü il tarixli 21/64 saylı Qərarını mübahisələndirmiş, seçki dairəsinin əhatə etdiyi bəzi seçki məntəqələri üzrə səsvermənin nəticələrinin etibarsız hesab olunmasını və seçki dairəsi üzrə seçkilərin nəticələrinin ləğv edilməsi barədə qərar qəbul edilməsini xahiş etmişdir.

Müraciət araşdırılarkən müəyyən olunmuşdur ki, A.Ə.Əbilov 2024-cü il sentyabrın 6-da qanun pozuntularının baş verməsi iddiası ilə 17 saylı Yasamal üçüncü seçki dairəsinin dairə seçki komissiyasına müraciət etmiş, bununla bağlı dairə seçki komissiyası 7 sentyabr 2024-cü il tarixli 21/64 saylı Qərarı ilə həmin müraciət şikayətvermə müddətinin ötürülməsi ilə daxil olduğundan, onu təqdim etmiş şəxsə geri göndərmişdir.

Seçki Məcəlləsinin 112.1-ci maddəsinə görə, seçki subyektləri vətəndaşların seçki hüquqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) həmin qərarın dərc edildiyi və ya alındığı, hərəkətin (hərəkətsizliyin) baş verdiyi gündən və ya maraqlı şəxsin bu haqda məlumat aldığı gündən başlayaraq 3 gün müddətində şikayət edə bilər.

Seçki Məcəlləsinin 112-1.14.1-ci maddəsinə əsasən, şikayət qanunla müəyyən olunmuş qaydada və müddətdə, yəni qərardan, hərəkətin (hərəkətsizliyin) baş verməsindən və ya maraqlı tərəfin xəbərdar olmasından sonra 3 gün ərzində daxil olmalıdır.

Beləliklə, araşdırma nəticəsində müəyyən edilmişdir ki, dairə seçki komissiyası müraciətin şikayətvermə müddətinin ötürülməsi ilə daxil olduğundan, onu təqdim etmiş şəxsə geri göndərmək barədə qərar qəbul etməklə düzgün hüquqi nəticəyə gəlmişdir. Bu səbəbdən də A.Ə.Əbilovun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 11 sentyabr 2024-cü il tarixli müraciəti əsassız olduğundan təmin edilməməli, dairə seçki komissiyasının 7 sentyabr 2024-cü il tarixli 21/64 saylı Qərarı dəyişdirilmədən saxlanılmalıdır.

Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının

Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 4-cü hissəsinə əsasən r ə y ə g ə l d i m :

1. 2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 17 saylı Yasamal üçüncü seçki dairəsi üzrə qeydə alınmış namizəd Aydın Əhməd oğlu Əbilovun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 11 sentyabr 2024-cü il tarixli 84 saylı müraciəti əsassız olduğundan təmin edilməsin, dairə seçki komissiyasının 7 sentyabr 2024-cü il tarixli 21/64 saylı qərarı dəyişdirilmədən saxlanılsın.

2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə göndərilsin.

Ekspert qrupunun üzvü Rafiq Abbasov